Rus şərqşünaslıq elminin banisi, Rusiya Elmlər Akademiyasının ilk azərbaycanlı üzvü və 3 dəfə Demidov medalı mükafatçısı, Böyük Britaniya və Şimali İrlandiya Kral Cəmiyyətinin və Britaniya Kral Şərqşünaslar Cəmiyyətinin üzvü, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası Elizavetanın Qızıl Medal laureatı, Peterburq Universitetinin fəxri doktoru və dekanı, türkşünas və filoloq... saysız-hesabsız adlar və mükafatlar sahibi - Mirzə Məhəmmədəli Kazım bəy.



# Dünya elminin inkişafına töhfələr verən görkəmli şərqşünas alim

O, 1802-ci ildə Rəşt şəhərində ruhani ailəsində dünyaya gəlmişdir. Babası Nazir Məhəmməd xan Dərbənd hakiminin baş xəzinədarı, atası Məhəmməd Qasım Kazım bəy isə Dərbəndin tanınmış ruhanilərindən olmuşdur. Məkkədən həcc ziyarətindən qayıdarkən atası Məhəmməd Qasım Kazım bəy Rəşt şəhərinin hakimi Mirbağır xanın qızı Şərəfnisə xanımla evlənmişdir. Mirzə Kazım bəy bu şəhərdə doğulmuş, bir qədər sonra atasının Dərbənd şəhərinə qazi təyin olunması ilə əlaqədar 9 yaşında ailəsi ilə birlikdə Dərbəndə köçmüşdür. Uşaqlıqdan elmi biliklərə dərin maraq göstərən Kazım bəy atasının köməyi ilə islam dininin əsaslarını, Azərbaycan, tatar, fars dillərini mükəmməl öyrənmiş, eyni zamanda ərəb, rus və türk dillərinə dərindən yiyələnmişdi. Kazım bəy xristianlığın mahiyyətini anlamaqdan ötrü yəhudi və ingilis dillərinə də maraq göstərmişdi.

17 yaşında olarkən Mirzə Kazım bəy "Ərəb dilinin qrammatikası" adlı kitab yazır. Atası isə oğlunun ruhani olmasını, İran və Ərəbistana dini təhsil dalınca getməsini istəyir. Lakin 1820-ci ildə Məhəmməd Qasım Kazım bəy İran əleyhinə casusluqda günahlandırılır və həyat yoldaşı ilə birgə Həştərxana sürgün edilir.

Mirzə Kazım bəy atasına baş çəkmək üçün 1821-ci ildə Həştərxana gedir və burada Şotlandiya missionerlərinin təsiri ilə xristian dinini qəbul edir. Onun bu qərarı ailəsi ilə münasibətlərinin pozulmasına səbəb olsa da, ömrünün sonuna qədər xristian dininə sitayiş göstərir.

Kazım bəy həm də filoloq idi. O, dilçiliyə xristianlığa dair əsərlərin şərq dillərinə tərcüməsi ilə başlamışdır. 1825-ci ildə təhsilini davam etdirmək üçün Böyük Britaniyaya, Londona dəvət olunsa da, rus hakim dairələri buna imkan verməmişdir. Rus imperiyasının xüsusi sərəncamı ilə Kazım bəy Omsk vilayətinə tatar dili müəllimi təyin olunmuş, lakin səhhətində yaranan ciddi problemə görə Omska gedişi təxirə salınmışdır. Bundan sonra Kazım bəy Kazan Universitetində ərəb və fars dillərindən dərs demək təklifi alır. 1828-ci ildə Britaniya Kral Şərqşünaslar Cəmiyyətinə üzv və Kazan Universitetində yenicə yaranmış Türk dilləri fakültəsinə rəhbər təyin olunur. 1835-ci ildə isə Rusiya Elmlər Akademiyasına müxbir üzv seçilir. 1839-cu ildə sonralar Demidov mükafatına layiq görülən "Türk-tatar dillərinin qrammatikası" adlı fundamental elmi monoqrafiyasını yazır. Bu əsərində Kazım bəy osmanlı, azəri və digər türk dillərinin fonoloji, morfoloji və sintaksis təhlil və müqayisəsini aparmışdır. Əsər 1846-cı ildə ikinci dəfə nəşr olunur və Qərbi Avropada türk dilləri barəsində ən zəngin elmi mənbə kimi geniş marağa səbəb olur. 1849-cu ildə Kazım bəy Sankt-Peterburq Universitetində yenicə açılmış Şərq dilləri fakültəsinə dekan təyin olunur. O, 1863-cü ildə isə burada Şərq tarixi kafedrasını təsis edir və şərq mədəniyyətinin öyrənilməsinə maraq göstərən tələbələrin təcrübi ekskursiyalara göndərilməsinin təşkilinə nail olur. 1854-cü ildə türk dilinə dair yeni, "Türk dillərinin öyrənilməsində kurs dərsliyi" və 6700 sözdən ibarət rus-türk lüğətini nəşr etdirir. Həmin il "Şərq dillərindən törəmiş rus söz və söz birləşmələrinin izahına dair" əsərini də yazmağa müvəffəq olur.

Mirzə Kazım bəy tarixi mövzularda da bir sıra kitabların müəllifidir. O, Krım xanlığının 1466-1737-ci illərdəki tarixindən bəhs edən "Əssəb əs-Səyyar" (Yeddi planet) əsərini türk dilində yazmışdır. 1841-ci ildə qələmə aldığı "Uyğurlar" əsərində isə qədim uyğurların tarixi haqqında dəyərli elmi məlumatlar verir. 1865-ci ildə nəşr etdirdiyi "Bab və Babilər: 1848-1852-ci illər İranda dini və siyasi təlatümlər" əsəri isə onun ən böyük tarixi əsəridir. Mirzə Kazım bəy islam dininin tədqiqinə dair "Qurani-Kərimdə ahənglik", "Müridizm və Şamil", "İslam tarixi" və s. onlarca kitabı da ərsəyə gətirmişdir.

1868-ci ildə rus elmi dairələrində Türküstanın etnoqrafiyası, linqvistikası, numizmatika və epiqrafiyasının öyrənilməsinə yönələn akademik işlərini başa çatdıra bilmir. Dahi alim 1870-ci ildə Sankt-Peterburqda vəfat etmişdir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**